GLENSOL
Global Energy Solutions

GLENSOL
Global Energy Solutions

**"Global Energy Solutions"**

**Məhdud Məsuliyyətli Cəmiyyəti**

**Hər birinin nominal dəyəri 100 (bir yüz) Azərbaycan manatı olan 150,000 (yüz əlli min) ədəd faizli, təmin edilməmiş, sənədsiz adlı istiqrazların**

# BAZA EMİSSİYA PROSPEKTİ

BAZA EMİSSİYA PROSPEKTİ

**Bakı, 2024-cü il**

Mündəricat

1. BƏYANAT ....... 3
2. XÜLASƏ ....... 4
3. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT ....... 10
4. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI ....... 12
5. EMİTENT BARƏDƏ MƏLUMAT ....... 12
6. EMİTENTİN BİZNESİNİN İCMALI ....... 13
7. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK ....... 16
8. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT ....... 16
9. GƏLİR PROQNOZU ....... 16
10. EMİTENTİN İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI ....... 17
11. İDARƏETMƏNİN İŞGÜZAR PRAKTİKASI ....... 18
12. EMİTENTİN NİZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHİB OLAN ŞƏXSLƏR ....... 19
13. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI ....... 19
14. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR ....... 29
15. İSTİQRAZLAR HAQQINDA MƏLUMAT. ....... 30

**Qeyd: Baza Emissiya Prospektinin mətnində Global Energy Solutions MMC, Emitent, Glensol, GES və ya şirkət adları altında çıxış edir.*

BAZA EMİSSİYA PROSPEKTİ

## 1. BƏYANAT

Biz, aşağıda imza edənlər,

1. Bu Baza Emissiya Prospektini tərtib etməzdən öncə “Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar” ilə tanış olduğumuzu təsdiq edirik;
2. Bu Baza Emissiya Prospektinə daxil edilmiş bütün məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyünü təsdiq edirik.

Global Energy Solutions MMC-nin Baş Direktoru

**Əliyev Tamerlan Rəhim oğlu**

İmza tarixi: 09.04.2024

Global Energy Solutions MMC-nin Baş Mühasibi

**Baxışov Elman Nasir oğlu**

İmza tarixi: 09.04.2024

BAZA EMİSSİYA PROSPEKTİ

## 2. XÜLASƏ

**2.1. Xəbərdarlıqlar**

**2.1.1.** Bu sənəd Baza Emissiya Prospektinin giriş hissəsidir.

**2.1.2.** İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun Baza Emissiya Prospekti ilə tanış olmasından sonra həyata keçirilməlidir.

**2.1.3.** Baza Emissiya Prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya etmək barədə qərar verən investorlara əsas informasiyanın verilmədiyi zaman Baza Emissiya Prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

**2.2. Emitent haqqında məlumat**

**2.2.1. Emitentin tam adı**: "Global Energy Solutions" Məhdud Məsuliyyətli Cəmiyyəti

**2.2.2. Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:**

- Təşkilati hüquqi forması: Məhdud məsuliyyətli cəmiyyət.
- Qeydiyyat ünvanı: Azərbaycan Respublikası, AZ1114, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, ev.1B, mənzil 4
- Faktiki Ünvan: Azərbaycan Respublikası, AZ1025, Bakı ş.,8 Noyabr prospekti 113, Baku Bay Tauer,15-ci mərtəbə

**2.2.3. Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:** Baş verən geo-siyasi və iqtisadi hadisələrlə əlaqədar dünyada neft və təbii qaza tələbatın artması neft-qaz sənayesinin, eləcə də bu sahə üzrə xidmət göstərən sektorun iş həcminin və rentabelliyinin artmasını dəstəkləmişdir. Xəzər regionu ölkələrində (xüsusən də Qazaxıstan, Türkmənistan, və s.) xarici sərmayə qoyuluşuna dövlət dəstəyinin artırılması fonunda özəl sektorun, eləcə də neft-qaz sənayesinin inkişafı hesabına ölkələrarası biznes inkişafının sürətlənməsi ölkəmizdə sözügedən sektorun genişlənməsi və şaxələnməsində əhəmiyyətli rol oynamışdır.

**2.2.4. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** "Global Energy Solutions" MMC-nin 90% payı Nobel Energy Limited (İngiltərə) şirkətinə, 10% payı isə Nobel Oil Investment (UK) Ltd (İngiltərə) şirkətinə məxsusdur. Emitent qeyd olunan payçılardan struktur asılılığı xaric, digər hüquqi şəxslərdən hər hansı bir asılılığı mövcud deyildir. Şirkətin əsas törəmə müəssisələri və onlarda iştirak payı aşağıdakı kimidir:

| Müəssisənin adı | Əsas fəaliyyəti | Təsis edildiyi ölkə | Kapitalda pay, % 12/2021 | Kapitalda pay, % 12/2022 | Kapitalda pay, % 11/2023 |
|---|---|---|---|---|---|
| Glensol Georgia LLC | Mühəndislik | Gürcüstan | 100 | 100 | 100 |
| Glensol LLP | Mühəndislik | Qazaxıstan | 100 | 100 | 100 |
| GVL LLC | Mühəndislik | Azərbaycan | 51 | 51 | 51 |
| Alash Energy Solutions LLP | Mühəndislik | Qazaxıstan | - | - | 50 |

**2.2.5. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil

**2.2.6. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** Şirkətin 31 dekabr 2022-ci il tarixinə olan konsolidasiya edilmiş maliyyə hesabatları PricewaterhouseCoopers Audit Azerbaijan MMC audit şirkəti tərəfindən audit edilmişdir və Şirkətin maliyyə vəziyyətinin, həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrinin, pul vəsaitlərinin hərəkətinin Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirilməsinə dair auditor rəyi verilmişdir.

**2.2.7. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə**

**məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.** Audit olunmuş son üç maliyyə ili, həmçinin ötən ilin 12 aylıq dövrü üzrə seçilmiş maliyyə məlumatı əsasında şirkətin maliyyə durumunun əsas göstəriciləri aşağıdakı cədvədə əks olunmuşdur. Son audit olunmuş maliyyə hesabatından bəri emitentin fəaliyyətində ciddi dəyişikliklər baş verməmişdir.

| **Audit olunmuş illik hesabatlar üzrə** *( min manat)* | **12/2020** | **12/2021** | **12/2022** |
|---|---|---|---|
| Gəlirlər | 28 894 | 50 245 | 63 184 |
| AFVƏM* | 11 726 | 28 947 | 10 232 |
| Xalis mənfəət (zərər) | 7 400 | 22 226 | 9 340 |
| Cəmi aktivlər (dövrün sonuna) | 60 531 | 84 796 | 110 733 |
| Cəmi öhdəliklər (dövrün sonuna) | 26 873 | 53 213 | 87 567 |
| Cəmi kapital (dövrün sonuna) | 33 658 | 31 583 | 23 167 |
| Pul vəsaitləri (dövrün sonuna) | 1 029 | 3 481 | 5 677 |

| **Audit olunmamış daxili on 12 aylıq hesabatlar üzrə** *( min manat)* | **12/2023** |
|---|---|
| Gəlirlər | 103 523 |
| AFVƏM* | 25 141 |
| Xalis mənfəət (zərər) | 21 327 |
| Cəmi aktivlər (dövrün sonuna) | 182 772 |
| Cəmi öhdəliklər (dövrün sonuna) | 117 637 |
| Cəmi kapital (dövrün sonuna) | 65 136 |
| Pul vəsaitləri (dövrün sonuna) | 66 538 |

*Amortizasiya, faizlər və vergidən əvvəlki mənfəət

**2.2.8. Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:** Glensol 2022-ci ilin Oktyabr ayında və 2023-cü ilin İyun ayında BP şirkəti tərəfindən Azərbaycan, Gürcüstan, Türkiyə regionunda qaz turbinlərinə texniki xidmətin göstərilməsi və maşın-mexanizmlərinin idarəedilməsi xidmətlərinin göstərilməsi üzrə müqavilələr imzaladı. Müvafiq olaraq 7 və 5 il müddətinə imzalamış müqavilələr üzrə xidmətlərin göstərilməsi şirkətinin nağd pul dövriyyəsinə ortamüddətli dövrdə müsbət təsir göstərəcək və şirkətin ödəmə qabiliyyətini artıracaqdır.Layihələr həm şirkətin öz vəsaiti, həm də bankdan götürülmüş bərpa olunan kredit xətləri hesabına maliyyələşdirilir və hər müddətin sonu bank tərəfindən yenidən baxılaraq növbəti müddət üçün uzadılır. Orta hesabla illik 11% faiz dərəcəsi ilə götürülmüş kredit xətlərinin ümumi məbləği təxminən 15 milyon AZN təşkil edir.

**2.2.9. Emitentin əsas fəaliyyətlərinin təsviri:** Glensol-un aşağıdakı əsas fəaliyyət sahələri mövcuddur.

Aşağıda qeyd olunan fəaliyyət növləri şirkətin son 3 il ərzində əsas xidmət sferasını təşkil edir. Bu dövr ərzində BP şirkəti ilə sıx əməkdaşlıq nəticəsində həm Azərbaycanda, həm də qonşu ölkələr üzrə xidmət portfelinin həcmində turbinlərinə texniki xidmətin göstərilməsi və maşın-mexanizmlərinin idarəedilməsi xidmətləri üzrə böyümə baş vermişdir.

**Fırlanan avadanlıqlar:** Glensol fırlanan avadanlıqların təmirini həyata keçirmək məqsədilə xüsusilə neft və qaz sənayesi üçün nəzərdə tutulmuş CMMS (Kompüterləşdirilmiş Texniki Dəstəyin İdarəetmə Sistemi) proqramından istifadə edir. Bu həll bütün avadanlıq məlumatları, iş sifarişləri, materiallar, və inventarlar üçün əsas məlumat mərkəzi rolunu oynayır. CMMS-dən istifadə etməklə mütəxəssislər iş fəaliyyətlərini, hissələrdən istifadəni və qurğunun istismar

müddətini izləyirlər. Əmək resurslarından istifadə effektivliyi təkmilləşdirilmiş planlaşdırma və qrafikləşdirmə yolu ilə, eləcə də məlumatların daxil edilməsi və lazımsız təmir tapşırıqlarına sərf olunan vaxtın azaldılması yolu ilə artırılır. Proqramın rəqəmsal qeydləri saxlamaq imkanı audit və hesabatların aparılmasını sadələşdirir və prosesi daha sürətli və asan edir.

**Emalatxana imkanları:** Şirkətin fırlanan avadanlıqların təmiri üçün yüksək standardlara cavab verən emalatxanası mövcuddur. Emalatxana təkcə fırlanan avadanlıqları deyil, həm də elektrik mühərriklərini, reduktorları, mexaniki kipkəcləri, quru qaz kipkəclərini, lövhə tipli istilik dəyişdiricilərini, boru tipli soyuducuları və s. kimi köməkçi sistemləri də təmir etmək üçün nəzərdə tutulmuşdur. Emalatxana qaldırma gücü 12.5 ton olan 2 ədəd, 7.5 ton olan 1 ədəd və 5 ton olan 1 ədəd körpülü kranla təchiz olunmuşdur. Emalatxana heyəti tam ixtisaslı yerli nəzarətçilərdən, mühəndislərdən və texniklərdən ibarətdir və burada aparılan əməliyyatlar illər ərzində Glensol ilə əməkdaşlıq edən, Glensolun beynəlxalq tərəfdaşları olan müxtəlif fırlanan avadanlıq istehsalçıları tərəfindən dəstəklənir.

**Elektrik və ölçmə Alətləri:** Şirkətin Azərbaycanda və ətraf ölkələrdə həm quruda, həm də dənizdə yerləşən qurğuları elektrik və nəzarət-ölçü cihazları xidmətləri ilə təmin edən peşəkar komandası və müasir avadanlıqları mövcuddur.

**İstismar və texniki xidmət:** Glensol tərəfindən görülən istismar və texniki xidmətlər aktilərin idarə edilməsindən mühəndislik həllərinin təklifinə qədər bir çox aspektləri əhatə edir. Şirkətin peşəkar komandası layihələrin idarə edilməsi və nəzarəti, təxliyə, dizayn, konseptual mühəndislik, satınalma, tekniki xidmət mühəndisliyi, sənaye sahələri üzrə texniki xidmətlər, əsaslı təmir xidmətləri üzrə təcrübəyə malikdir.

**Satınalma və təchizat zəncirinin idarə edilməsi:** Glensol Azərbaycanda, Gürcüstanda və onun hüdudlarından kənarda BP, SOCAR və digər şirkətlərə neft və qaz sektorunda istifadə olunan avadanlıq və qurğularla təchiz edir. Bundan əlavə olaraq, öz müştərilərinə məxsus olan bir sıra avadanlıqları onların dayanma müddətini və riskinin azalmasının məqsədi ilə xüsusi şəraitdə saxlanma xidmətini göstərir.

**Təlim xidmətləri:** Glensol yerli və xarici işçi qüvvəsinə beynəlxalq standartlara cavab verən yüksək səviyyəli təlimlər keçir. Təlim xidmətlərinin əsas məqsədi texniki işçiləri istehsalçının və ya şirkətin təcrübə və prosedurlarına uyğun olaraq sahədə istismar olunan avadanlıqları idarə etmək və saxlamaq üçün bütün lazımi bilik və bacarıqlarla təmin etməkdir. Təlim proqramını uğurla başa vurduqdan sonra təcrübəçilər qiymətləndirilir və sertifikala təmin olunurlar.

**2.2.10. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətinin xüsusiyyəti:** "Global Energy Solutions" MMC-in 90% payı Nobel Energy Limited (İngiltərə) şirkətinə və 10% payı Nobel Oil Investment (UK) Ltd (İngiltərə) şirkətinə məxsusdur. Mühüm iştirak payının sahibi emitentə nəzarəti emitentin nizamnaməsinə və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir. Şirkətin ali idarəetmə orqanı olan Ümumi Yığıncaq emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:

- Şirkətin növbədənkənar ümumi yığıncaqlarının çağırılması hallarını və qaydalarını müəyyən etmək;
- Şirkətin illik hesabatlarını və mühasibat balanslarını təsdiq etmək, mənfəəti və zərəri bölüşdürmək;
- Şirkətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək, o cümlədən icra orqanının üzvlərini təyin etmək və geri çağırmaq, onların səlahiyyət müddətini müəyyənləşdirmək;
- Şirkətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;
- Şirkətin başqa təşkilatlarda iştirakı, habelə hüquqi şəxsləri, filialların və nümayəndəliklərin yaradılması, yenidən təşkili və ləğv edilməsi;
- Şirkətin icra orqanının səlahiyyətlərinin kənar idarəçiyə verilməsi;
- Şirkətin fəaliyyətinin auditor yoxlanışlarının aparılması qaydasını müəyyən etmək.

**2.3. İstiqrazlar haqqında məlumat**

**2.3.1. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar

**2.3.2. İstiqrazların valyutası:** Azərbaycan manatı

**2.3.3. Tədavül müddəti:** 2 (iki) il

**2.3.4. İstiqrazların təsbit olunan məhdudiyyətlər:** Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

**2.3.5. İstiqrazların təsbit olunmuş hüquqların təsviri:**

- Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 10.5 (on tam onda beş) faiz həcmində faiz almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**2.3.6. İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin nəyin əsasında hesablanması üsulu, həmin əsas barədə məlumat və onun müəyyən olunmasının mənbələri:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 10.5 (on tam onda beş) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 2 (iki) il müddətində (ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) hər 6 (altı) aydan bir (ayda günlərin sayı 30 (otuz) götürülməklə) ödənilir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, ödəniş növbəti ilk iş günü həyata keçirilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada yerinə yetirilir. İstiqrazların sonuncu kupon ödənişi nominal dəyəri ilə birlikdə ödəniləcəkdir.

**2.3.7. Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**2.3.8. İstiqrazların geri satın alınma şərtləri:** İstiqrazın tədavül müddəti bitməmiş istiqrazların emitent tərəfindən investorlardan geri almaq öhdəliyi yoxdur.

**2.3.9. Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:**

İstiqrazlar üzrə faiz (kupon) gəlirliyi illik 10.5 (on tam onda beş) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{N * D * G}{360} / 100$$

Burada:

$TF$ – Bir istiqraz üzrə toplanmış faizlər (Azərbaycan manatı ilə ifadə olunur);

$N$ – Bir istiqrazın nominal dəyəri (100 (bir yüz) Azərbaycan manatı);

$D$ – İstiqrazların illik faiz dərəcəsi (10.5 (on tam onda beş) faiz);

$G$ – son faiz (kupon) ödənişindən keçən günlərin sayı.

**2.3.10. İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** Mövcud deyil.

**2.3.11. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**2.3.12. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir.

İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. İstiqrazların dəyəri pulla ödənilir və bu pul vəsaiti hərrac günündən gec olmayaraq, investorlar tərəfindən Emitentin "Paşa Bank" ASC-də açdığı müvəqqəti cari hesaba köçürülür. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.glensol.az) açıqlanır. İstiqrazların yerləşdirilməsi Baza emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Baza emissiya prospekti qeydiyyata alınıb, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

**2.4. Risk faktorları**

**2.4.1. Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:** İstiqrazları əldə edən şəxs aşağıdakı əsas risklərin mövcud olduğunu bilməli və nəzərə almalıdır:

**2.4.1.1.** Kredit riski – Emitentin istiqrazlar tədavüldə olan müddətdə onlar üzrə faiz (kupon) ödənişlərinin və müddətin sonunda əsas nominal dəyər üzrə ödənişin həyata keçirə bilməməsi riskidir. Emitentin öz öhdəliklərinin yerinə yetirməməsi ehtimalının artması istiqrazların bazar qiymətinə mənfi təsir edir. Bu halın baş verməsi bir çox amillərdən, o cümlədən Emitentin mövcud və gələcəkdə yaranacaq öhdəliklərinin kapitala nisbəti, satdığı əsas məhsulların bazar qiymətinin azalması ilə Emitentin ödəniş qabiliyyətinin zəifləməsi və bir sıra digər amillərdən asılıdır.

**2.4.1.2.** Faiz dərəcəsi riski – AR Mərkəzi Bankının uçot dərəcəsinin artması nəticəsində istiqrazların bazar dəyərinin azalması riskidir. Uçot dərəcəsinə təsir edən əsas faktorlara inflyasiyanın və ya inflyasiya gözləntilərinin artması, AR Mərkəzi Bankı tərəfindən pul siyasətinin sərtləşdirilməsi üzrə görülən tədbirlər və digər faktorları aid etmək olar.

**2.4.1.3.** Valyuta riski – Azərbaycan manatının ABŞ dolları və digər valyutalara qarşı dəyər itirməsi riskidir. Azərbaycan manatının ABŞ dollarına və o cümlədən digər valyutalara qarşı dəyər itirməsi, ödənilən vəsaitlər üzrə investorun alıcılıq qabiliyyətinin aşağı düşməsi riskidir.

**2.4.1.4.** Likvidlik riski – istiqraz üzrə ticarət həcmlərinin azalması və ya istiqraz üzrə bazarda mövcud olan ən yaxşı alış və ən yaxşı satış qiyməti arasında fərqin (spredin) artması (spredin genişlənməsi) nəticəsində istiqrazın əlverişsiz qiymətə satılması riskidir.

**2.4.2. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:** Şirkətin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorlarına aşağıdakıları aid etmək:

- Daxili faktorlar. Emitentin portfelində AR Dövlət Neft Şirkəti ilə olan debitor borcların ödənilməsində gecikmələr mövcuddur. Lakin yalnız bir müştərinin ödəmə qabiliyyətindən asılı olmamaq üçün Glensol son illərdə müştəri bazasının diversifikasiya strategiyasına fokuslanıb və bu siyasətin nəticəsində ödəniş qrafiki yaxşı olan şirkətlərin portfeldəki proporsiyası önəmli dərəcədə artmışdır.
- Xarici faktorlar. Göstərilən xidmətlərin sferasında böyük payın neft-qaz sənayesinə aid olması, gələcəkdə bu sənayeyə neqativ təsir edəcək hər hansı makroiqtisadi və ya geo-siyasi hadisənin baş verməsi halında neft-qaz sənayesində aktivliyin azalması riski mövcuddur.

**2.5. Təklif**

**2.5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Təklifin əsas səbəbi şirkətin əsas fəaliyyətinin genişlənməsi fonunda biznesin dəstəklənməsi üçün dövriyyə kapitalının cəlb edilməsidir.

Şirkətin mövcud partnyorları ilə genişlənən və şaxələnən biznes əlaqələrinin nəticəsi olaraq orta və uzunmüddətli dövrdə şirkətin biznes portfelində böyümə gözlənilir ki, bu böyümənin dəstəklənməsi üçün əlavə dövriyyə kapitalına ehtiyac yaranır. Artan dövriyyə kapitalına olan tələbi ödəmək üçün həm daxili resurslar, həm də xarici maliyyələşmə mənbələrindən istifadə nəzərdə tutulur.

2.5.2. **Təklifin şərtlərinin təsviri:** İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. İstiqrazların dəyəri pulla ödənilir və bu pul vəsaiti hərrac günündən gec olmayaraq, investorlar tərəfindən Emitentin "Paşa Bank" ASC-də açdığı müvəqqəti cari hesaba köçürülür. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.glensol.az) açıqlanır. İstiqrazların yerləşdirilməsi Baza emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Baza emissiya prospekti qeydiyyata alınıb, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

2.5.3. **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat:**

2.5.3.1. **"Bakı Fond Birjası" QSC.** Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların yerləşdirilməsinin təşkil edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatların aparılması üçün müvafiq ticarət sistemin təmin edilməsi.

2.5.3.2. **Azərbaycan Respublikasının Mili Depozit Mərkəzi.** Azərbaycan Respublikasının Mili Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Azərbaycan Respublikasının Mili Depozit Mərkəzi vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (faiz ödənişlərinin və tədavül müddətinin sonunda istiqrazın nominal dəyərinin) həyata keçirilməsi xidmətinin göstərilməsi.

2.5.3.3. **"PAŞA Kapital İnvestisiya Şirkəti" QSC (anderrayter).** 09 mart 2016-ci il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən investisiya şirkəti fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş İSN/L-640/2016 nömrəli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterin vəzifələri aşağıdakılardır:

- İstiqrazların yerləşdirilməsi üzrə hərrac zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alqı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək;
- Emissiyanın yekunları haqqında hesabat Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq edildəndən sonra, yerləşdirmə nəticəsində toplanmış pul vəsaitlərini Emitentin bank hesabına köçürülməsini təmin etmək.

BAZA EMISSIYA PROSPEKTI

**2.5.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği.**

**2.5.4.1. Vergilər**. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

İstiqrazlar üzrə hüquqi şəxslərə ödəniləcək faizlər isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlb olunacaqdır.

**2.5.4.2. Xərclər**. İstiqrazın əldə olunması ilə bağlı xidmət haqqı xərcləri investisiya şirkətlərinin tarif siyasətindən asılıdır. Bu barədə məlumat almaq istəyən investorlar onlara investisiya xidməti göstərəcək "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC-yə müraciət etməlidirlər. İnvestorlar aşağıda qeyd edilmiş xərclərin ödənilməsi öhdəliyini daşıyacaqlar:

- əqdin məbləğinin 0.02%-i həcmində BFB komissiyası;
- investisiya şirkətinin 15 (on beş) AZN məbləğində komissiya haqqı;
- Milli Depozit Mərkəzində "depo" hesabının açılması 5 (beş) AZN haqqı;
- Hesablaşma agentindəki bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir);
- Faiz və nominal ödənişləri zamanı bank-köçürmə və nağdlaşdırma xərclər (bankdan asılı olaraq dəyişir).

**2.6. İstiqraz buraxılışları haqqında məlumat:**

İstiqrazların emissiyası üç mərhələdə həyata keçiriləcək. Hər bir mərhələdə 5,000,000 (beş milyon) AZN həcmində istiqraz emissiya olunacaq. Hər bir buraxılış həmin buraxılışa aid müvafiq Yekun Şərtlərlə müşayiət olunacaq.

BAZA EMİSSİYA PROSPEKTİ

## 3. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT

**3.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **Auditorun adı** | PricewaterhouseCoopers Audit Azerbaijan MMC | PricewaterhouseCoopers Audit Azerbaijan MMC | PricewaterhouseCoopers Audit Azerbaijan MMC |
| **Auditorun ünvanı** | Landmark Off. Plaza III 12-ci mərtəbə, 90A Nizami küçəsi Bakı, AZ1010, Azərbaycan | Landmark Off. Plaza III 12-ci mərtəbə, 90A Nizami küçəsi Bakı, AZ1010, Azərbaycan. | Landmark Off. Plaza III 12-ci mərtəbə, 90A Nizami küçəsi Bakı, AZ1010, Azərbaycan |
| **Auditorun üzvlüyü barədə məlumat** | Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvüdür. | Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvüdür. | Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvüdür. |

3.2. **Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Son üç maliyyə ili ərzində auditor əvəzlənməmişdir.

BAZA EMİSSİYA PROSPEKTİ

## 4. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI

**4.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:**

| **5. Audit olunmuş illik hesabatlar üzrə** **6. *( min manat)*** | **12/2020** | **12/2021** | **12/2022** |
|---|---|---|---|
| Gəlirlər | 28 894 | 50 245 | 63 184 |
| AFVƏM* | 11 726 | 28 947 | 10 232 |
| Xaliş mənfəət (zərər) | 7 400 | 22 226 | 9 340 |
| Cəmi aktivlər (dövrün sonuna) | 60 531 | 84 796 | 110 733 |
| Cəmi öhdəliklər (dövrün sonuna) | 26 873 | 53 213 | 87 567 |
| Cəmi kapital (dövrün sonuna) | 33 658 | 31 583 | 23 167 |
| Pul vəsaitləri (dövrün sonuna) | 1 029 | 3 481 | 5 677 |

| **Audit olunmamış daxili on 12 aylıq hesabatlar üzrə** *( min manat)* | **12/2023** |
|---|---|
| Gəlirlər | 103 523 |
| AFVƏM* | 25 141 |
| Xalis mənfəət (zərər) | 21 327 |
| Cəmi aktivlər (dövrün sonuna) | 182 772 |
| Cəmi öhdəliklər (dövrün sonuna) | 117 637 |
| Cəmi kapital (dövrün sonuna) | 65 136 |
| Pul vəsaitləri (dövrün sonuna) | 66 538 |

*Amortizasiya, faizlər və vergidən əvvəlki mənfəət

## 5. EMİTENT BARƏDƏ MƏLUMAT

**5.1. Emitentin tam adı, təşkilati-hüquqi forması:** "Global Energy Solutions" Məhdud Məsuliyyətli Cəmiyyəti

**5.2. Emitentin dövlət qeydiyyatının rekvizitləri:** VÖEN: 1002454561,10.02.2012-ci il tarixində qeydiyyata alınıb.

**5.3. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** "Global Energy Solutions" Məhdud Məsuliyyətli Cəmiyyəti 10 fevral 2012-ci il tarixində qeydiyyata alınmışdır. Şirkətin hüquqi təşkilatı formasında və ya adında dəyişiklik edilməmişdir.

**5.4. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:** Qeydiyyat ünvanı: Azərbaycan Respublikası, AZ1114, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, ev.1B, mənzil 4, Məhdud Məsuliyyətli Şirkəti; Faktiki Ünvan: Azərbaycan Respublikası, AZ1025, Bakı ş.,8 Noyabr prospekti 113, Baku Bay Tauer,15-ci mərtəbə.; İnternet səhifəsi: www.glensol.az; Əlaqə telefonları: (012) 310 08 19. Elektron poçt ünvanı: info@glensol.az.

**5.5. Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** 31.12.2022-ci il tarixində son dərc olunmuş audit maliyyə hesabatlarından etibarən əhəmiyyətli sayılacaq dərəcədə investisiya olmamışdır.

**5.6. İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəliklər və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri yoxdur və tələb olunduqda gələcək investisiyalar emitentin daxili ehtiyatları və cəlb ediləcək kapital hesabına reallaşdırılacaqdır.

**5.7. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:** Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdiriləcəkdir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"–ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB-də Pay bazarı, Borc alətləri bazarı, Repo bazarı, Törəmə maliyyə alətləri bazarı mövcuddur.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower) Elektron poçt ünvanı: info@bse.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.az

Tel: (+99412) 539 72 49

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 6. EMİTENTİN BİZNESİNİN İCMALI

**6.1. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:** Global Energy Solutions (GLENSOL) 2012-ci ildən etibarən neft, qaz, enerji və su sənayelərində sahə işləri və avadanlıqların təmiri sferasında xidmət göstərir. Son 3 (üç) il ərzində göstərilmiş xidmətlərin əsas kateqoriyaları və onlara aid məlumatlar barədə qeydlər aşağıda qeyd olunmuş cədvəldə əks olunur.

| Göstərilmiş xidmətlərin əsas kateqoriyaları | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Fırlanan avadanlıqlar | AZN 78,953 | AZN 501,476 | AZN 469,323 |
| İstismar və texniki xidmət | AZN 26,626,605 | AZN 40,596,837 | AZN 56,980,440 |
| Elektrik və ölçmə alətləri | AZN 8,107,163 | AZN 1,558,303 | AZN 0 |
| Emalatxana imkanları | AZN 749,218 | AZN 2,286,785 | AZN 3,115,922 |
| Satınalma və təchizat zəncirinin idarə edilməsi | AZN 14,682,946 | AZN 18,068,831 | AZN 42,469,523 |
| Təlim xidmətləri | AZN 0 | AZN 172,089 | AZN 487,793 |
| **Ümumi** | **AZN 50,244,885** | **AZN 63,184,321** | **AZN 103,523,000** |

**Fırlanan avadanlıqlar:**

- Turbomaşın xidmətləri: Şirkət ölkədə sahə dəstək xidmətlərinin təmin edilməsi üçün Solar Turbines və Siemens tərəfindən avtorizasiya olunub. Burada ağır sənaye turbinlərinə (GE, Siemens və Alstom) müəyyən xidmətlər göstərilir. Göstərilən xidmətlərin əhatə dairəsinə turbinlər, turbo kompressorlar, turbo generatorlar, motorlar, klapanlar, soyuducular, turbomaşınların kontrol sistemləri, köməkçi sistemlər, nasoslar daxildir.

- Turbomaşınların nəzarət sistemi: Şirkət proses axınını artıraraq əməliyyat qabiliyyətini yaxşılaşdıran və əməliyyat xərclərini azaldan turbomaşın nəzarət sistemini təmin edir. Buraya turbin və kompressor idarəetmə vasitələrinin fərdiləşdirilmiş komponentlərinin, eləcə də kompleks turbomaşın idarəetmə vasitələri üçün həllərin tədarükü daxildir.
- Monitorinq və diaqnostika: Glensolun monitorinq və diaqnostika xidmətləri sistemləri planlaşdırılmamış təmirdən planlı təmirə keçirir, xərcləri azaldır, texniki xidməti optimallaşdırır və daha yüksək səmərəlilik üçün işləmə vaxtını yüksəldir. İnnovativ diaqnostika alətlərindən istifadə edilərək analitikaya əsaslanan praktiki təmir həlləri təqdim edilir.

**Emalatxana imkanları:**

- Klapan xidmətləri: Layihənin və texniki xidmətin idarə edilməsi, dövri və profilaktik baxım daxil olmaqla klapanların idarə edilməsi üçün inteqral həllər təklif edərək əməliyyatların davamlılığı və effektivliyi təmin edilir. Glensol nəzarət, təzyiqli təhlükəsizlik və bağlama klapanlarının düzgün istismarı və texniki xidməti vasitəsilə boru kəmərinin optimal, təhlükəsiz işləməsinə zəmanət verir. Glensol dünyanın ən nəhəng istehsalçılarından olan "Kent Introl", "Farris", "Curtiss-Wright" və "PetroValve" şirkətləriylə rəsmi partnyorluq ve distrübyüterlik razılaşmaları imzalayıb.
- Top Drive xidmətləri: Glensol hər hansı bir fövqəladə vəziyyətə yerində və zamanında cavab verməyi təmin edən təcrübəli sahə texniklərindən ibarət komandaya malikdir. Bu komanda Azərbaycan tarixində ilk dəfə Top Drive əsaslı təmir həyata keçirmişdir və bundan sonra Top Drive avadanlıqlarını dünyanın başqa ölkələrində olan zavod istehsalçılarına göndərməyə gərək qalmamışdır. Bununla da Glensol müştərilərin xərclərini azaltmış və vaxt baxımından effektivliyi kəskin artırmışdır.
- Nasos Xidmətləri: Nasoslarda baş verən nasazlıqlar onun istehsal gücünün azalmasına və hətta istehsalın dayandırılmasına səbəb ola bilir. Glensol demək olar ki, bütün marka və növ nasoslara sürətli və effektiv texniki qulluq, bərpa və əsaslı təmiri təmin edir. Glensol dünyanın ən nəhəng istehsalçılarından olan "Celeros", "PumpWorks", "Ruhrpumpen", "ITT Bornemann" şirkətləriylə rəsmi partnyorluq və distrübyüterlik razılaşmaları imzalayıb.
- Elektrik mühərriki və generator xidmətləri: Yüksək səviyyədə təchiz olunmuş emalatxanada 15 MVt-a qədər elektrik mühərrikləri və generatorları təmir edilib, daha sonra yerinə quraşdırılır. Buraya bütün sənaye sahələrindən, əsasən də, Neft və Qaz sənayesindən mühərriklər və generatorlar daxildir. Sertifikatlı və təcrübəli mühəndislər, dünya səviyyəli avadanlıq və mexanizmlərimizlə yanaşı, bütün fırlanan avadanlıqlara həm emalatxanada, həm də yerində beynəlxalq standartlara uyğun təhlükəsiz və yüksək keyfiyyətli təmir xidmətləri göstərir. Glensol dünyanın ən nəhəng istehsalçılarından olan "KATO", "Laurence Scott", "Hayward Tyler", "Trillium", "ABB Group" şirkətləriylə rəsmi partnyorluq və distrübyüterlik razılaşmaları imzalayıb.

**Elektrik və ölçmə Alətləri:**

- Elektrik və ölçmə cihaz xidmətləri: Glensol layihələndirmə və quraşdırmadan başlayaraq istismar, dəstək və müntəzəm monitorinqə qədər bütün layihə müddətində həm quruda, həm də dənizdə əməliyyatlara kompleks Elektrik və nəzarət-ölçmə xidməti təqdim edir.
- Elektrik xidmətləri: Glensolun elektrik xidmətləri komandası Nobel Enerji Qrupu üzrə mövcud olan xüsusi və inteqrə xidmətlər təmin edir.
- Elektrik avadanlığı xidmətləri: Mexaniki avadanlıq üçün texniki xidmət və hissələrin alınması da daxil olmaqla təhlükəsiz və fasiləsiz iş prosesini təmin edən həllər təqdim edilir.
- Mühəndislik və texniki dəstək: Glensolun quruda və dənizdə, eləcə də elektrik stansiyalarında mühəndislik və texniki xidmət göstərən yüksək təcrübəli kadrları mövcuddur. Sözügedən komanda layihənin və tikintinin idarə edilməsi, texniki xidmətin planlaşdırılması, texniki sənədlərin hazırlanması, zavodun idarə edilməsi və texniki administrasiyası da daxil olmaqla bütöv layihə müddətində əməyin mühafizəsi və təhlükəsizliyi üzrə təlimatlara əsaslanaraq çalışmağa nəzarət edir.
- Ölçmə və nəzarət xidmətləri: Müasir texnologiyalara əsaslanan ölçmə və nəzarət sistemləri həllərinin geniş spektrinə idarəetmə panelinin yığılması, aparat və proqram təminatı mühəndisliyi üçün dizayn, sistemin analizi, quraşdırma, işə salma və sınaq daxildir.

- Elektrik və ölçmə alətlərinin inteqral xidmətləri: Glensolun yüksək standartlı elektrik və ölçmə alətlərinin inteqral xidmətləri neft-qaz, enerji və kimya sənayelərini əhatə edir. Şirkət müştərilərin xüsusi aktiv strategiyaları ilə effektiv şəkildə uyğunlaşan monitorinq proseslərini inkişaf etdirmək üçün əsas operatorlarla işləyir. Mövcud hərtərəfli imkanlar tələb olunan təmiri asanlaşdırır və aktivlərin optimal həyat dövrünə təsir edəcək uğursuzluq riskini azaldır.

**İstismar və texniki xidmət:**

- Aktivlərin idarə edilməsi həlləri: Glensol aktivlərin inteqral həllərində təcrübəyə əsaslanaraq aktivlərin optimal perfomansını təmin edir. Səmərəliliyi və təhlükəsizliyi artıraraq xərcləri azaltmaq üçün strategiyalar hazırlanılır. Mövcud komanda innovativ modifikasiyaların və əsaslı təmirlərin planlaşdırılması, hazırlanması və icrası sahəsində yüksək təcrübəyə malikdir.
- Texniki xidmət mühəndisliyi: Layihənin idarə edilməsi və mühəndislik məsələlərinin bütün aspektlərini əhatə edir. Xidmət sferasına layihənin idarə edilməsinə nəzarət, eləcə də qiymətləndirmə, dizayn, konseptual və qabaqcıl mühəndislik, satınalma, qiymətləndirmə, istismara vermə, tikinti, təmir və istismara başlamaq üçün dəstək xidmətləri daxildir.
- Aktivlərin perfomans idarəetməsi: Şirkət, PAS55 və ISO 55001 standartlarına ciddi riayət etməklə aktivlərin optimal idarə edilməsi üzrə biznes strategiyaları təklif edir.
- Sənayelər üzrə texniki xidmət: Müştərilərin mövcud idarəetmə çərçivəsini yenidən təşkil etmək və ya texniki xidməti tamamilə kənardan satın almaq istəyindən asılı olmayaraq aktivlərə texniki xidmət üzrə tam və effektiv həllər təklif olunur. Şirkət aktivlərin optimallaşdırılmış məhsuldarlığı üçün sürətli, qənaətcil texniki xidməti təmin edərək müştərinin xüsusi biznes problemlərinə və tələblərinə əsaslanan texniki xidmət modelləri hazırlayır.
- Obyektər üzrə əməliyyatlar: Peşəkar komanda və təhlükəsizlik proses sistemləri sənaye və ticarət obyektləri üçün əməliyyat effektivliyi və inteqrallığı təmin edir. Obyektlərin idarə edilməsi üzrə xidmətlərin əhatə dairəsinə təkcə gündəlik əməliyyatların effektivliyinin təmin edilməsi deyil, həm də hədəflərin və strategiyaların başa düşülərək həll yollarının təklif edilməsi daxildir. Aktivlərin idarə edilməsi üzrə peşəkar komanda əməliyyatların təhlükəsizliyi, istehsal məsrəflərinin azaldılması, proseslərin optimallığının təmin edilməsi üçün fərdi yanaşmalar təklif edərək aktivlərin perfomansını yaxşılaşdırır.
- Əsaslı təmir: Glensol neft-qaz, enerji, kimya və digər sənaye sahələrində planlı və planlanmamış əsaslı təmir xidmətlərini yerinə yetirərək aktivlərin perfomansını yaxşılaşdırır, təmirə bağlanma vaxtını və xərcləri minimuma endirir. Təcrübəli komanda perfomans təhlili və qabaqcıl planlaşdırma əsasında təhlükəsizlik və keyfiyyət meyarlarını əsas tutaraq strategiyaları inkişaf etdirərək vaxtında və qənaətcil həllər təklif edir.

**Satınalma və təchizat zəncirinin idarə edilməsi:**

- Satınalma və ticarət: Mexaniki və konstruktik alətlər, elektrik avadanlıq və alətləri, borular, qaynaq avadanlıqları və məhsulları, qaldırıcı alətlər və avadanlıqlar, proses və yanğınsöndürmə avadanlıqları, kimya sənayesi avadanlıqları və məhsulları və s. üzrə satınalma və ticarət xidmətlərini əhatə edir. Hal-hazırda Glensol tərəfindən müştərilər üçün saxlanılan inventar sayı 17 000-dən artıqdır.
- Vendor tərəfindən idarə olunan inventar: Glensol, müştərilərin bütün mexaniki və elektrik avadanlıqlarına xidmət etməyə imkan verən və vendor tərəfindən idarə olunan inventar xidmətləri təqdim edir. Xidmətlərə müştərinin inventarının təchizatı, saxlanması və texniki qulluğu daxildir. Əsas məqsəd təhlükəsiz əməliyyatlar üçün istənilən vaxt xüsusi şəraitdə saxlanılan ehtiyat avadanlıqların istismara yararlı vəziyyətdə olmasını təmin etməkdir. Bu, dayanma müddətini və riskini azaldır.

**Təlim xidmətləri:**

- Glensol yerli və xarici işçi qüvvəsinə yüksək beynəlxalq standartlara uyğun və yüksək keyfiyyətli kompetensiya əsaslı təlimlər təqdim edir. Təlim xidmətlərinin əsas məqsədi texniki işçiləri təşkilati təcrübə və prosedurlara uyğun olaraq sahədə istismar olunan avadanlıqları idarə etmək və saxlamaq üçün bütün lazımi bilik və bacarıqlarla təmin etməkdir.

**6.2. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:.**

- 2022-ci ilin oktyabr ayında Glensol ümumi dəyəri 240 milyon ABŞ dolları olan 7 (+3) il müddətinə GT Siemens turbomaşınlarına texniki xidmət müqaviləsi əldə etdi.
- 2023-cü ilin iyun ayında Glensol ümumi dəyəri 35 milyon AZN olan GT SOLAR turbomaşınlarına 5 illik texniki xidmət müqaviləsi əldə etdi.

BP tarixində ilk dəfə idi ki, bu müqavilələr birbaşa istehsalçısı olmayan və yerli bir şirkətlə bağlanıb. Bu müqavilələr Glensolu BP-nin Strateji podratçısına çevirdi.

**6.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri**: Glensolun rəqabət apardığı əsas bazara texniki qulluq xidmətləri sektoru (xüsusən də, fırlanan avadanlıqlara, klapanlara və elektromotor/generatorlara) aiddir. Bu sektorda Glensolun üstünlüyünə tam API və ASME sertifikatlı işçi qüvvəsi, tam EX sertifikatlı personal, gücü, ölçüləri və texnologiyası baxımından ən müasir avadanlıqlarla təmin edilən emalatxanası daxildir.

**6.4. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması:** Glensolun rəqabət mövqeyinə dair bəyanatı mövcud deyil. Tam sertifikatlı və peşəkar işçi qüvvəsinə və müasir avadanlıqlarla təmin edilən emalatxanaya malik olmaq, bazarın əsas iştirakçılarıyla uzunmüddətli və etibarlı əməkdaşlığa sahib olmaq şirkətin rəqiblərə nəzərən rəqabət üstünlüyünü formalaşdırır.

## 7. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK

**7.1. Emitentin digər hüquqi şəxslərdə qısa təsviri:** Emitentin strukturuna daxil olan törəmə müəssisələri bu Baza Emissiya Prospektinin 2.2.4-cü bəndində göstərilmişdir.

**7.2. Emitent daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:** "Global Energy Solutions" MMC-in 90% payı "Nobel Energy Limited" (İngiltərə) şirkətinə və 10% payı "Nobel Oil Investment (UK) Ltd" (İngiltərə) şirkətinə məxsusdur. Emitent qeyd olunan payçılar şirkətlərdən struktur və təşkilati asılılığı istisna olmaqla digər hüquqi şəxslərdən hər hansı bir asılılığı mövcud deyildir.

## 8. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT

**8.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat:** 2023-cü ilin yanvar ayından etibarən şirkətdə mənfi dəyişikliyə səbəb olacaq əhəmiyyətli dəyişiklik baş verməmişdir.

**8.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:** Baş verən geo-siyasi və iqtisadi hadisələrlə əlaqədar dünyada neft və təbii qaza tələbatın artması fonunda neft-qaz sənayesinin, eləcə də bu sahə üzrə xidmət göstərən sektorun iş həcminin və rentabelliyinin artmasını dəstəkləmişdir. Xəzər regionu ölkələrində (xüsusən də Qazaxıstan, Türkmənistan, və s.) xarici sərmaye qoyuluşuna dövlət dəstəyinin artırılması fonunda özəl sektorun, eləcə də neft-qaz sənayesinin inkişafı hesabına ölkələrarası biznes inkişafının sürətlənməsi ölkəmizdə sözügedən sektorun genişlənməsi və şaxələnməsində əhəmiyyətli rol oynamışdır. Digər tərəfdən, neft və qaz qiymətlərində son dövrlərdə baş verən dalğalanmalar bu sənayenin biznes rentabelliyinə təsir edir və dolayısıyla neft-qaz xidmətləri sektorunda marjaların formalaşmasında əhəmiyyətli rol oynayır. Uzunmüddətli dövrdə isə ölkədə məhdud neft və qaz ehtiyatlarının mövcudiyyəti neft və qaz sənayesinin davamlılığı üçün əsas risk faktorlarından biridir.

## 9. GƏLİR PROQNOZU

**9.1.** Audit tərəfindən təsdiq olunmuş gəlir proqnozu mövcud deyil.

## 10. EMİTENTİN İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI

**10.1 Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:** Emitentin nizamnaməsinə əsasən Emitentin fəaliyyətinə cari rəhbərlik, Emitentin icraedici orqanı və qanuni təmsiliçilik funksiyasına malik olan Baş Direktor tərəfindən həyata keçirilir.

| S.A.A. | Funksiyaları: | Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat: |
|---|---|---|
| Əliyev Tamerlan Rəhim oğlu – Şirkətin Baş Direktoru. | - Şirkətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir;<br>- Şirkətin adından vəkalətnaməsiz fəaliyyət göstərir;<br>- Şirkətin operativ idarə edilməsini həyata keçirir;<br>- Üçüncü şəxslərlə münasibətdə, o cümlədən məhkəmədə Şirkəti təmsil edir;<br>- Ümumi yığıncağın təsdiqinə verilən sənədləri hazırlayır, Şirkətin adından əqdlər bağlayır, rəsmi sənədləri imzalayır, Şirkətin işçilərini vəzifəyə təyin edir, başqa vəzifəyə keçirir, vəzifəsindən azad edir, onların vəzifə maaşlarını müəyyən edir, onlar barəsində həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiq edilməsi haqqında əmrlər verir.<br>- Qanunvericilikdə və Şirkətin nizamnaməsi ilə ümumi yığıncağın və digər idarəetmə orqanlarının səlahiyyətlərinə aid edilməyən digər səlahiyyətləri həyata keçirir. | Glensolu daxil olduğu qrup səviyyəsində Davranış Qaydaları və Biznes Etik Siyasəti adlı daxili siyasət və prosedurlar toplusu mövcuddur. Sözügedən qaydalar toplusunda işçilərdən faktiki və ya mümkün maraqların toqquşmasını ehtiva edən vəziyyətlərdən və münasibətlərdən yayınmaları, şirkətin resurslarından, adından, və səlahiyyətlərindən şəxsi mənfəət üçün istifadə etməmələri və şirkətin reputasiyasına və imicinə mənfi təsir göstərə biləcək hallardan uzaq durmaları tələb olunur. |

Emitentin ali idarəetmə orqanı Ümumi Yığıncaqdır.

| S.A.A. | Funksiyaları: | Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat: |
|---|---|---|
| Səmədli Vüqar Muxtar oğlu – Şirkətinin Ümumi Yığıncağında Şirkətin nizamnamə kapitalında 90% iştirak payına sahib olan "Nobel Energy | - Şirkətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək;<br>- Şirkətin növbədənkənar ümumi yığıncaqlarının çağırılması hallarını və qaydalarını müəyyən etmək;<br>- Şirkətin illik hesabatlarını və mühasibat balanslarını təsdiq etmək, mənfəət və zərəri bölüşdürmək; | Direktor Azərbaycan Respublikası Mülki Məcəllənin tələblərinə fəaliyyət göstərir. Maraqlar arasında ziddiyyət yarandıqda hüquqi şəxsin maraqları şəxsi |

| | | |
|---|---|---|
| Limited" tərəfindən 08.06.2023-cü il tarixində verilmiş etibarnamə əsasında səlahiyyətli nümayəndə və Emitentin nizamnamə kapitalında 10% iştirak payına sahib olan "Nobel Oil İnvestment UK Limited" adından qanuni nümayəndə. | - Şirkətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək, o cümlədən icra orqanının üzvlərini təyin etmək və geri çağırmaq, onların səlahiyyət müddətini müəyyənləşdirmək;<br>- Şirkətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;<br>- Şirkətin başqa təşkilatlarda iştirakı, habelə hüquqi şəxslərin, filialların və nümayəndəliklərin yaradılması, yenidən təşkili və ləğv edilməsi;<br>- Şirkətin icra orqanının səlahiyyətlərinin kənar idarəçiyə verilməsi;<br>- Şirkətin fəaliyyətinin auditor yoxlanışlarının aparılması qaydasını müəyyən etmək. | maraqlardan üstün tutulur. Maraqların toqquşması barədə məlumat Ümumi Yığıncağa verilir.<br>Eyni zamanda, aidiyyəti şəxs ilə müqavilənin imzalanması yalnız Ümumi Yığıncağın razılığı ilə mümkündür. |

## 11. İDARƏETMƏNİN İŞGÜZAR PRAKTİKASI

**11.1 Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı**: Şirkətdə hal-hazırda audit və mükafatlandırma komitələri mövcud deyil. Sözügedən funksiyalar emitentin daxil olduğu şirkətlər qrupu səviyyəsində həyata keçirilir.

**11.2 Emitentin, qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə izahat**: Emitent öz fəaliyyətini Nizamnamə tələblərə müvafiq olaraq təşkil etmişdir. Eyni zamanda Şirkətdə həm effektiv daxili nəzarət sistemi qurulmuş, həm də Şirkətin təsisçisi Nobel Energy tərəfindən törəmə şirkətlərində Nobel Energy Group-un bütün müştərilərinə yüksək keyfiyyətli və etibarlı xidmət və məhsulların təmin edilməsi məqsədilə idarəetmə sistemləri üçün tanınmış beynəlxalq sertifikatlar tələb edir. Bu tələbi yerinə yetirmək məqsədilə Glensol müştərilərə göstərilən bütün xidmətləri əhatə edən Keyfiyyət, Sağlamlıq, Təhlükəsizlik və Ətraf Mühitin İdarəetmə Sistemi standartları üçün ISO 9001:2015, 45001:2018 və 14001:2015 sertifikatlarına, eyni zamanda Azərbaycanda Neft, Qaz və Neft-Kimya Sənayesi Sahəsində Müştərilərə Mühəndislik, Satınalma, Ticarət, Tikinti və Quraşdırma xidmətlərinin idarə edilməsini təmin edən İdarəetmə Şirkəti Kimi Rüşvətxorluğun Qarşısının Alınması, Aşkarlanması və Cavab Verilməsi standartları üçün ISO 37001:2016 sertifikatına malikdir.

BAZA EMISSIYA PROSPEKTI

## 12. EMİTENTİN NİZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHİB OLAN ŞƏXSLƏR

**12.1 Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti**: 28 aprel 2022-ci il tarixində Şirkətin Nizamnaməsinə edilmiş dəyişikliklərə əsasən Nizamnamənin 2.2-ci bəndi aşağıdakı kimi oxunur: Şirkətin İştirakçılarının nizamnamə kapitalındakı payları aşağıdakı kimi müəyyən edilmişdir:

- İngiltərə və Uels qanunlarına əsasən 25 iyun 2014-cü il tarixində təsis edilmiş, qeydiyyat nömrəsi 9102634 və hüquqi ünvan 10-18 Union küçəsi, London, Birləşmiş Krallıq SE1 1SZ olan **"Nobel Energy Limited" şirkəti** – hər birinin nominal dəyəri 759 550,45 AZN (yeddi yüz əlli doqquz min beş əlli manat qırx beş qəpik), ümumi dəyəri 6 835 954,05 AZN (altı milyon səkkiz yüz otuz beş min doqquz yüz əlli dörd manat beş qəpik) olan 9 (doqquz) pay 90%, pul şəklində;
- İngiltərə və Uels qanunlarına əsasən 11 iyun 2014-cü il tarixində təsis edilmiş, qeydiyyat nömrəsi 9082333 və hüquqi ünvan 10-18 Union küçəsi, London, Birləşmiş Krallıq SE1 1SZ olan "**Nobel Oil Investment (UK) LTD" şirkəti** – hər birinin nominal dəyəri 759 550,45 AZN (yeddi yüz əlli doqquz min beş yüz əlli manat qırx beş qəpik), ümumi dəyəri 759 550,45 AZN (yeddi yüz əlli doqquz min beş yüz əlli manat qırx beş qəpik) olan 1 (bir) pay 10%, pul şəklində.

**12.2 Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:**

Mühüm iştirak payının sahibi emitentə nəzarəti emitentin nizamnaməsinə və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir. Şirkətin ali idarəetmə orqanı olan Ümumi Yığıncaq emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəli və ya növbədənkənar ola bilər.

**12.3 Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat**: Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar mövcud deyil.

## 13.EMİTENTİN MALİYYƏ MƏLUMATLARI

**13.1. Emitentin başa çatmış son üç maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:**

BAZA EMİSSİYA PROSPEKTİ

*"GLOBAL ENERGY SOLUTIONS" MMC*
***Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat***
**31 DEKABR 2020,2021,2022-Cİ İL TARİXİNƏ**

**(Azərbaycan manatı ilə)**

| | 31 DEKABR 2020-Cİ İL | 31 DEKABR 2021-Cİ İL | 31 DEKABR 2022-Cİ İL |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əsas vəsaitlər | 2,701,812 | 2,788,868 | 2,632,789 |
| İstifadə hüquqlu aktivlər | 2,283,986 | 3,840,992 | 2,575,754 |
| Qeyri-maddi aktivlər | 53,614 | 55,495 | 71,639 |
| Asılı müəssisəyə investisiya qoyuluşu | 745,837 | 947,361 | 1,075,378 |
| Verilmiş borcların uzunmüddətli hissəsi | - | | 594,854 |
| Müddətli depozitlər | | | 48,096,075 |
| Sair aktivlər | | | 814,477 |
| **Cəmi uzunmüddətli aktivlər** | **5,785,249** | **7,632,716** | **55,860,966** |
| **Qısamüddətli aktivlər** | | | |
| Mal-material ehtiyatları | 552,542 | 1,842,022 | 1,415,196 |
| Ticarət və digər debitor borcları | 51,549,098 | 69,658,735 | 27,631,835 |
| Verilmiş avanslar | 1,614,447 | 2,181,321 | 6,899,353 |
| Müqavilə aktivləri | - | | 4,158,933 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,029,825 | 3,480,806 | 5,676,733 |
| Verilmiş borcların qısamüddətli hissəsi | | | 9,090,259 |
| **Cəmi qısamüddətli aktivlər** | **54,745,912** | **77,162,470** | **54,872,309** |
| **Cəmi aktivlər** | **60,531,161** | **84,795,600** | **110,733,275** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 7,595,505 | 7,595,505 | 7,595,505 |
| Bölüşdürülməmiş mənfəət | 26,055,779 | 23,970,722 | 15,044,609 |
| Valyutanın çevrilməsi üzrə ehtiyat | 6,468 | 16,862 | 526,414 |
| **Cəmi kapital** | **33,657,752** | **31,583,089** | **23,166,528** |
| **Öhdəliklər** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Səhmdarlardan alınmış borclar | | | 34,421,833 |
| Borc öhdəlikləri, uzunmüddətli hissə | 3,726,251 | 6,577,328 | 622,929 |
| İcarə öhdəlikləri, uzunmüddətli hissə | 1,905,757 | 2,675,848 | 1,958,593 |
| Təxirə salınmış vergi öhdəlikləri | 6,084,851 | 10,887,441 | 968,089 |
| Sair uzunmüddətli öhdəliklər | | 186,765 | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **11,716,859** | **20,327,382** | **37,971,444** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Borc öhdəlikləri, qısamüddətli hissə | 2,825,778 | 2,569,965 | 7,811,295 |
| İcarə öhdəlikləri, qısamüddətli hissə | 738,726 | 498,886 | 819,296 |
| Ticarət və digər kreditor borcları | 11,592,096 | 18,688,313 | 13,137,639 |
| Müqavilə öhdəlikləri | - | | 353,027 |
| Vergi ehtiyatı | | 11127965 | 19,651,325 |
| Qısamüddətli mənfəət vergisi öhdəliyi | | | 7,822,721 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **15,156,600** | **32,885,129** | **49,595,303** |
| **Cəmi öhdəliklər** | **26,873,459** | **53,212,511** | **87,566,747** |
| **Cəmi öhdəliklər və kapital** | **60,531,161** | **84,795,600** | **110,733,275** |

***"GLOBAL ENERGY SOLUTIONS" MMC***
***Konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat***
***31 DEKABR 2020,2021,2022-Cİ İL TARİXLƏ***

***(Azərbaycan manatı ilə)***

| | 31 DEKABR 2020-Cİ İL | 31 DEKABR 2021-Cİ İL | 31 DEKABR 2022-Cİ İL |
|---|---|---|---|
| Müştərilərlə müqavilələr üzrə gəlirlər | 28,894,145 | 50,245,393 | 63,184,225 |
| Satışların maya dəyəri | -12,881,315 | -28,236,998 | -37,590,456 |
| **Ümumi mənfəət** | **16,012,830** | **22,008,395** | **25,593,769** |
| Sair gəlirlər | 118,574 | 23,466,343 | 447,299 |
| Ümumi və inzibati xərclər | -5,422,687 | -17,129,759 | -17,030,785 |
| Sair xalis gəlir/(zərər) | -30,039 | -81,192 | -712,633 |
| **Əməliyyat mənfəəti** | **10,678,678** | **28,263,787** | **8,297,650** |
| Maliyyə xərcləri | -860,449 | -1,446,689 | -1,691,411 |
| Asılı/birgə müəssisənin maliyyə nəticələrində pay | 351,120 | 201,524 | 128,017 |
| **Vergidən əvvəlki mənfəət** | **10,169,349** | **27,018,621** | **6,734,256** |
| Mənfəət vergisi xərci | -2,759,215 | -4,802,590 | 2,096,631 |
| **İl üzrə mənfəət** | **7,410,134** | **22,216,031** | **8,830,887** |
| **Sair məcmu gəlir:** | | | |
| | | | |
| *Sonradan mənfəət və ya zərərə yenidən təsnifləşdirilə bilən maddələr:* Xarici əməliyyatlar ilə bağlı maliyyə məlumatlarının təqdimat valyutasına çevrilməsi | -9,701 | 10,394 | 509,552 |
| **İl üzrə cəmi məcmu gəlir** | **7,400,433** | **22,226,425** | **9,340,439** |

***"GLOBAL ENERGY SOLUTIONS" MMC***
***Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat***
**31 DEKABR 2022-Cİ İL BAŞA ÇATMIŞ İL ÜZRƏ**

**(Azərbaycan manatı ilə)**

| | Nizamnamə kapitalı | Valyutanın çevrilməsi üzrə ehtiyat | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| | | | | |
| **1 yanvar 2021-ci il tarixinə qalıq** | **7,595,505** | **6,468** | **26,055,729** | **33,657,702** |
| İl üzrə mənfəət | - | - | 22,216,033 | 22,216,033 |
| İl üzrə sair məcmu gəlir | - | 10,394 | - | 10,394 |
| 2021-ci il üzrə cəmi məcmu gəlir | - | 10,394 | 22,216,033 | 22,226,427 |
| Şərti hesablanmış dividendlər | - | - | -23,183,262 | -23,183,262 |
| Elan edilmiş dividendlər | - | - | -1,117,778 | -1,117,778 |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | **7,595,505** | **16,862** | **23,970,722** | **31,583,089** |
| İl üzrə mənfəət | - | - | 8,830,887 | 8,830,887 |

| | | | | |
|---|---|---|---|---|
| İl üzrə sair məcmu gəlir | - | 509,552 | - | 509,552 |
| 2022-ci il üzrə cəmi məcmu gəlir | - | 509,552 | 8,830,887 | 9,340,439 |
| Şərti hesablanmış dividendlər | - | - | -17,757,000 | -17,757,000 |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **7,595,505** | **526,414** | **15,044,609** | **23,166,528** |

***"GLOBAL ENERGY SOLUTIONS" MMC***
***Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat***
**31 DEKABR 2021-Cİ İL BAŞA ÇATMIŞ İL ÜZRƏ**

**(Azərbaycan manatı ilə)**

| | **Nizamnamə kapitalı** | **Əlavə kapital qoyuluşu** | **Valyutanın çevrilməsi üzrə ehtiyat** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi kapital** |
|---|---|---|---|---|---|
| | | | | | |
| **1 yanvar 2020-ci il tarixinə qalıq** | **6,745,505** | **-** | **16,169** | **18,645,645** | **25,407,319** |
| İl üzrə mənfəət | - | - | - | 7,410,134 | 7,410,134 |
| İl üzrə sair məcmu zərər | - | - | -9,701 | - | -9,701 |
| 2020-ci il üzrə cəmi məcmu gəlir | - | - | -9,701 | 7,410,134 | 7,400,433 |
| Nizamnamə kapitalının artırılması | 850,000 | - | - | - | 850,000 |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | **7,595,505** | **-** | **6,468** | **26,055,779** | **33,657,752** |
| İl üzrə mənfəət | - | - | - | 22,216,032 | 22,216,032 |
| İl üzrə sair məcmu gəlir | - | - | 10,394 | - | 10,394 |
| 2021-ci il üzrə cəmi məcmu gəlir | - | - | 10,394 | 22,216,032 | 22,226,426 |
| Şərti hesablanmış dividendlər | - | | - | -23,183,261 | -23,183,261 |
| Elan edilmiş dividendlər | - | - | - | -1,117,778 | -1,117,778 |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | **7,595,505** | **246,605** | **16,862** | **23,970,722** | **31,583,089** |

BAZA EMİSSİYA PROSPEKTİ

***"GLOBAL ENERGY SOLUTIONS" MMC***
***Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat***
**31 DEKABR 2020-Cİ İL BAŞA ÇATMIŞ İL ÜZRƏ**

**(Azərbaycan manatı ilə)**

| | | Nizamnamə kapitalı | Valyutanın çevrilməsi üzrə ehtiyat | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2019-cu il tarixinə qalıq** | | **1,700,100** | **12,451** | **13,857,826** | **15,570,377** |
| İl üzrə mənfəət | | - | - | 4,787,819 | 4,787,819 |
| İl üzrə sair məcmu gəlir | | - | 3,718 | - | 3,718 |
| 2019-cu il üzrə cəmi məcmu gəlir | | - | 3,718 | 4,787,819 | 4,791,537 |
| Nizamnamə kapitalının artırılması | | 5,045,405 | - | - | 5,045,405 |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | | **6,745,505** | **16,169** | **18,645,645** | **25,407,319** |
| İl üzrə mənfəət | | - | - | 7,410,134 | 7,410,134 |
| İl üzrə sair məcmu zərər | | - | -9,701 | - | -9,701 |
| 2020-ci il üzrə cəmi məcmu gəlir | | - | -9,701 | 7,410,134 | 7,400,433 |
| Nizamnamə kapitalının artırılması | | 850,000 | - | - | 850,000 |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | | **7,595,505** | **6,468** | **26,055,779** | **33,657,752** |

***"GLOBAL ENERGY SOLUTIONS" MMC***
***Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat***
**31 DEKABR 2020,2021,2022-Cİ İL BAŞA ÇATMIŞ İL ÜZRƏ**

**(Azərbaycan manatı ilə)**

| | 31 DEKABR 2020-Cİ İL | 31 DEKABR 2021-Cİ İL | 31 DEKABR 2022-Cİ İL |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Vergidən əvvəlki mənfəət | 10,169,349 | 27,018,622 | 6,734,256 |
| Düzəlişlər: | | | |
| Əsas vəsaitlər və qeyri-maddi aktivlərin amortizasiyası | 1,125,420 | 1,439,075 | 1,760,960 |
| Maliyyə aktivləri üzrə xalis dəyərsizləşmə zərəri | 950,976 | 153,966 | 215,740 |
| Maliyyə xərcləri | 860,449 | 1,446,690 | 1,691,411 |
| Maliyyə gəlirləri | | | -4,498 |
| Məzənnə fərqləri | 30,039 | 81,192 | 371,008 |
| Asılı müəssisənin maliyyə nəticələrində pay | -351,120 | -201,524 | -128,017 |
| Sair qeyri-pul əməliyyat xərcləri | | | 153,819 |
| Əsas vəsaitlərin silinməsi üzrə zərər | | | 42,291 |
| Vergi ehtiyatı | | | 8,523,360 |
| İcarə müqaviləsinin modifikiasiyası üzrə gəlir | -44,652 | - | |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **12,740,461** | **29,938,021** | **19,360,330** |

| | | | |
|---|---|---|---|
| Ticarət və digər debitor borclarında artım | -16,184,240 | -18,293,648 | 42,183,010 |
| Müqavilə aktivlərində azalma | 1,819,667 | - | -4,158,933 |
| Sair aktivlərdə artım | | | -814,475 |
| Verilmiş avanslarda (artım)/azalma | 12,814 | -2,054,325 | -4,309,426 |
| Mal-material ehtiyatlarında artım | -267,001 | -1,289,480 | 426,826 |
| Ticarət və digər kreditor borclarında artım | 3,575,489 | 7,242,230 | -5,161,699 |
| Müqavilə öhdəliklərində azalma | -1,404,200 | - | |
| Müqavilə öhdəliklərində artım | | | 353,028 |
| Sair uzunmüddətli öhdəliklərdə azalma | | | -186,763 |
| Vergi ehtiyatında artım | - | 11,127,965 | |
| **Dövriyyə kapitalında dəyişikliklər** | **-12,447,471** | **-3,267,258** | **28,331,568** |
| Ödənilmiş faizlər | -757,689 | -1,117,994 | -978,600 |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan/(istifadə edilən) xalis pul vəsaitləri** | **-464,699** | **25,552,769** | **46,713,298** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | -542,036 | -757,508 | -551,170 |
| Qeyri-maddi aktivlərin alınması | -30,425 | -1,881 | -25,956 |
| Depozit hesabına yerləşdirmə | | | -48,620,000 |
| Verilmiş borclar | | | -17,514,645 |
| Qaytarılmış borclar | | | 7,606,483 |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | **-572,461** | **-759,389** | **-59,105,288** |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc öhdəlikləri üzrə daxilolmalar | 7,850,000 | 15,368,861 | 43,378,974 |
| Borc öhdəliklərinin qaytarılması | -6,468,326 | -12,804,073 | -10,110,413 |
| İcarə öhdəlikləri üzrə əsas borcun ödənilməsi | -394,343 | -605,811 | -899,016 |
| Nizamnamə kapitalının artırılması | 850,000 | | - |
| Səhmdarlara ödənilmiş dividendlər | - | -24,301,040 | -17,757,000 |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə (istifadə edilən)/daxil olan xalis pul vəsaitləri** | **1,837,331** | **-22,342,063** | **14,612,545** |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | -348 | -338 | -24,626 |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **230,002** | **1,029,825** | **3,480,806** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **1,029,825** | **3,480,806** | **5,676,735** |

**13.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** Emitent bir ildən çox müddətdə fəaliyyət göstərir.

**13.3. Emitent yeni yaradılmış hüquqi şəxs olduğu ilə əlaqədar maliyyə hesabatlarını tərtib edə bilmədiyi təqdirdə maliyyə hesabatlarının əvəzinə proforma maliyyə hesabatını təqdim etməlidir:** Emitent yeni yaradılmış hüquqi şəxs deyil.

**13.4. Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:** Audit olunmuş maliyyə hesabatları MHBS-ə uyğun olaraq hazırlanmışdır. Aralıq maliyyə hesabatları isə milli uçot standartlarına uyğun olaraq hazırlanmışdır.

**13.5. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** 13.1-ci bəndində qeyd olunmuş audit hesabatları konsolidə olunmuş hesabatlardır.

**13.6. Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:** Son audit edilmiş maliyyə hesabatı tarixindən (2022-ci il dekabr ayı) sonra şirkət tərəfindən audit edilmiş rüblük və ya yarımillik maliyyə hesabatları dərc olunmamışdır.

**13.7. Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarım illik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Son audit edilmiş maliyyə hesabatı tarixindən (2022-ci il dekabr ayı) sonra şirkət tərəfindən audit edilmiş rüblük və ya yarımillik maliyyə hesabatları dərc olunmamışdır.

Ötən ilin 12 aylıq audit edilməmiş maliyyə hesabatları aşağıda əlavə olunur.

BAZA EMİSSİYA PROSPEKTİ

***"GLOBAL ENERGY SOLUTIONS" MMC***
***Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat***
**31 DEKABR 2023-CÜ İL TARİXLƏ**

***(Azərbaycan manatı ilə)***

| '000 AZN ilə | 12.2023 Konsolidə olunmuş |
|---|---|
| ***Qısamüddətli aktivlər*** | **160,020** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 16,696 |
| ƏDV depozit hesabı | 50 |
| Müddətli depozitlər | 49,791 |
| Ticarət və digər debitor borcları | 64,759 |
| Vergi üzrə verilmiş avanslar | 6,268 |
| Verilmiş avanslar | 18,545 |
| Mal-material ehtiyatları | 1,425 |
| Əvəzləşdirilən ƏDV | 1,734 |
| Alınmış ƏDV avansları | 633 |
| Digər qısamüddətli aktivlər | 118 |
| ***Uzunmüddətli aktivlər*** | **22,753** |
| Əsas vəsaitlər | 2,341 |
| Əlaqəli şirkətlərə borclar | 19,121 |
| İnvestisiya qoyuluşu | 1,229 |
| Qeyri-maddi aktivlər | 61 |
| **Ümumi aktivlər** | **182,772** |
| | |
| ***Qısamüddətli öhdəliklər*** | **111,295** |
| Ticarət və digər kreditor borcları | 43,098 |
| Vergi öhdəlikləri | 8,231 |
| Qısamüddətli borc öhdəlikləri | 23,000 |
| Əlaqəli şirkətlərdən alınmış borclar | 35,160 |
| Uzunmüddətli ehtiyatı | 1,806 |
| ***Uzunmüddətli öhdəliklər*** | **6,341** |
| Təxirə salınmış mənfəət vergi öhdəliyi | 6,341 |
| **Ümumi öhdəliklər** | **117,637** |
| *Kapital* | |
| Nizamnamə kapitalı | 7,596 |
| Bölüşdürülməmiş mənfəət | 36,214 |
| Cari il üzrə mənfəət/zərər | 21,327 |
| **Ümumi kapital** | **65,136** |
| | |
| **Ümumi kapital və öhdəliklər** | **182,772** |

BAZA PROSPEKTİ

***"GLOBAL ENERGY SOLUTIONS" MMC***
***Konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat***
***31 DEKABR 2023-CÜ İL TARİXLƏ***

***(Azərbaycan manatı ilə)***

| '000 AZN ilə | 12.2023<br>Konsolidə olunmuş |
|---|---|
| **Gəlir** | |
| Xidmətlərin göstərilməsi | 59,501 |
| Malları satışı | 44,022 |
| **Ümumi gəlir** | **103,523** |
| | |
| | |
| Əmək haqqı xərcləri | (19,567) |
| Əməliyyat xərcləri | (19,002) |
| İnzibati xərclər | (7,972) |
| Satışların maya dəyəri | (31,840) |
| **AFVƏM** | **25,141** |
| | |
| | |
| Amortizasiya | (684) |
| Faiz xərcləri | (2,245) |
| Məzənnə fərqi | 453 |
| Digər gəlir | 1,812 |
| Digər xərclər | (836) |
| Birgə müəssisələrin maliyyə nəticələrində pay | 154 |
| | |
| **Vergidən əvvəl mənfəət** | **23,794** |
| | |
| Mənfəət vergi xərcisi | (2,468) |
| | |
| **Xalis mənfəət** | **21,327** |

BAZA EMİSSİYA PROSPEKTİ

*"GLOBAL ENERGY SOLUTIONS" MMC*
***Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat***
**31 DEKABR 2023-CÜ İL BAŞA ÇATMIŞ İL ÜZRƏ**

***(Azərbaycan manatı ilə)***

| '000 AZN ilə | 12.2023 Konsolidə olunmuş |
|---|---|
| Malların satışından və xidmətlərin göstərilməsindən daxilolmalar | 96,809 |
| ƏDV üzrə daxilolmalar (banklar və ƏDV depozit hesabı ilə) | 3,119 |
| **Xaricolmalar** | |
| Mallar və xidmətlərə görə xaricolmalar | (60,495) |
| ƏDV üzrə xaricolmalar (banklar və ƏDV depozit hesabı ilə) | (3,428) |
| İşçilərin mükafatlandırılması ilə əlaqədar ödənişlər | (9,960) |
| DSMF ayırmaları (3+22%) | (3,706) |
| Digər vergi xaricolmaları (bank və ƏDV hesabı ilə) | (3,342) |
| Bank xərcləri | (919) |
| Təchizatçılara ödənilmiş avans ödənişləri | (726) |
| Mallara aid olan gömrük xərcləri | (182) |
| Gömrüyə aid olan ƏDV ödənişləri | (529) |
| Mənfəət vergisi ödənişi üzrə xaricolmalar | (11,522) |
| Əməliyyat fəaliyyətindən yaranan faiz ödənişləri üzrə xaricolmalar | (6,169) |
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | **(1,049)** |
| Əsas vəsaitlərin alınması | (426) |
| Gömrük ödənişləri (əsas vəsaitlərə aid olan) | (10) |
| Faizlər üzrə daxilolmalar | 1,267 |
| Qeyri-maddi aktivlərin alınması | (8) |
| Əlaqədar tərəflərə verilmiş kreditlər və avanslar | (5,709) |
| ***İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | **(4,886)** |
| Əlaqədar tərəflərdən alınmış borclar | 470 |
| Əlaqədar tərəflərdən alınmış borcların ödənişi | (15) |
| Banklardan alınmış borc vəsaiti | 43,024 |
| Verilmiş bank kreditlərin ana məbləği üzrə ödənişlər | (28,895) |
| ***Maliyyə fəaliyyətlərindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | **14,585** |
| **Pul vəsaitlərinin xalis artımı** | **8,650** |
| Pul vəsaitlərin ilin əvvəlinə qalığı | 57,140 |
| Valyuta məzənnəsinin dəyişməsinin xarici valyutada saxlanılan pul vəsaitləri və onların ekvivalentlərinin balansına təsiri | 748 |
| **Pul vəsaitlərin dövrün sonuna qalığı** | **66,538** |

**13.8. Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla)**: Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir göstərə bilən hüquqi proses mövcud deyil.

**13.9. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat**: Son audit edilmiş 2022-ci il maliyyə hesabatının tərtib olunmasından etibarən şirkətin maliyyə vəziyyətinə ciddi təsir edəcək əsaslı dəyişiklik baş verməmişdir.

## 14. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR

**14.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, payların miqdarı, onların nominal dəyəri və növləri, habelə payların ayrı-ayrı növləri haqqında məlumat, təsbit olunmuş hüquqların məzmunu:**

Şirkətin nizamnamə kapitalı 7 595 504,50 manat təşkil edir və 10 paydan ibarətdir.
Şirkətin İştirakçılarının nizamnamə kapitalındakı payları aşağıdakı kimi müəyyən edilmişdir:

**Təsbit olunmuş hüquqların məzmunu:**

- Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 10.5 (on tam onda beş) faiz həcmində faiz almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**a)** İngiltərə və Uels qanunlarına əsasən 25 iyun 2014-cü il tarixində təsis edilmiş, qeydiyyat nömrəsi 9102634 və hüquqi ünvan 10-18 Union küçəsi, London, Birləşmiş Krallıq SE1 1SZ olan **Nobel Energy Limited şirkəti** – hər birinin nominal dəyəri 759 550,45 AZN (yeddi yüz əlli doqquz min beş əlli manat qırx beş qəpik), ümumi dəyəri 6 835 954,05 AZN (altı milyon səkkiz yüz otuz beş min doqquz yüz əlli dörd manat beş qəpik) olan 9 (doqquz) pay 90%, pul şəklində;

**b)** İngiltərə və Uels qanunlarına əsasən 11 iyun 2014-cü il tarixində təsis edilmiş, qeydiyyat nömrəsi 9082333 və hüquqi ünvan 10-18 Union küçəsi, London, Birləşmiş Krallıq SE1 1SZ olan Nobel Oil Investment (UK) LTD şirkəti – hər birinin nominal dəyəri 759 550,45 AZN (yeddi yüz əlli doqquz min beş yüz əlli manat qırx beş qəpik), ümumi dəyəri 759 550,45 AZN (yeddi yüz əlli doqquz min beş yüz əlli manat qırx beş qəpik) olan 1 (bir) pay 10%, pul şəklində.

**14.2. Emitentin 28 aprel 2022-ci il tarixində dəyişdirilmiş və müvafiq qaydada təsdiqlənmiş nizamnaməsi barədə məlumat**:

- **Fəaliyyət və məqsədlərin təsviri**: "Global Energy Solutions" MMC Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan bütün fəaliyyət növləri ilə, o cümlədən xüsusi icazə alınmasını tələb edən fəaliyyət növləri ilə yalnız müvafiq icazəni (lisenziya) aldıqdan sonra məşğul ola bilər. "Global Energy Solutions" MMC-nin əsas məqsədi kommersiya fəaliyyəti nəticəsində gəlirin əldə edilməsidir.
- **İdarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı**: Emitentin ali idarəetmə orqanı onun iştirakçılarının ümumi yığıncağıdır. Şirkətin iştirakçılarının ümumi yığıncağının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

- Şirkətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək;
- Şirkətin növbədənkənar ümumi yığıncaqlarının çağırılması hallarını və qaydalarını müəyyən etmək;
- Şirkətin illik hesabatlarını və mühasibat balanslarını təsdiq etmək, mənfəəti və zərəri bölüşdürmək;
- Şirkətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək, o cümlədən icra orqanının üzvlərini təyin etmək və geri çağırmaq, onların səlahiyyət müddətini müəyyənləşdirmək;
- Şirkətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;

- Şirkətin başqa təşkilatlarda iştirakı, habelə hüquqi şəxsləri, filialların və nümayəndəliklərin yaradılması, yenidən təşkili və ləğv edilməsi;
- Şirkətin icra orqanının səlahiyyətlərinin kənar idarəçiyə verilməsi;
- Şirkətin fəaliyyətinin auditor yoxlanışlarının aparılması qaydasını müəyyən etmək.

Şirkətin fəaliyyətinə cari rəhbərlik şirkətin icraedici orqanı və qanuni təmsilçilik funksiyasına malik olan Baş Direktor tərəfindən həyata keçirilir. Baş Direktorun səlahiyyətlərinə aşağıdakılar aiddir:

- Şirkətin adından vəkalətnaməsiz fəaliyyət göstərir;
- Şirkətin operativ idarə edilməsini həyata keçirir;
- Üçüncü şəxslərlə münasibətdə, o cümlədən məhkəmədə Şirkəti təmsil edir;
- Ümumi yığıncağın təsdiqinə verilən sənədləri hazırlayır, Şirkətin adından əqdlər bağlayır, rəsmi sənədləri imzalayır, Şirkətin işçilərini vəzifəyə təyin edir, başqa vəzifəyə keçirir, vəzifəsindən azad edir, onların vəzifə maaşlarını müəyyən edir, onlar barəsində həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiq edilməsi haqqında əmrlər verir;
- Qanunvericilikdə və Şirkətin nizamnaməsi ilə ümumi yığıncağın və digər idarəetmə orqanlarının səlahiyyətlərinə aid edilməyən digər səlahiyyətləri həyata keçirir.

**14.3. Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat**: Qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr mövcud deyil.

## 15. İSTİQRAZLAR HAQQINDA MƏLUMAT.

**15.1. Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik**
Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Qanun, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli, 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və 27 yanvar 2016- ci il tarixli, 04 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

**15.2 Təklif olunan qiymətli kağızların reytinqi və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif edilən istiqrazlara reytinq əldə edilməsi üçün heç bir reytinq agentliyinə müraciət edilməyib.

**15.3 İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** İstiqrazların əldə edilməsinə heç bir məhdudiyyət qoyulmayıb.

**15.4 İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:**

: İstiqrazlar üzrə faiz (kupon) ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

**15.5 .Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:**Potensial investorlar hüquqi şəxslər, banklar, sığorta təşkilatları, investisiya şirkətləri, rezident və qeyri rezident fiziki şəxslər ola bilər. Xarici hüquqi şəxslərin də istiqrazları alması mümkündür. Potensial investorların istiqrazlar barədə məlumatlandırılması üçün internet resursларından və anderrayter vasitəsilə fərdi görüşlərin keçirilməsi

nəzərdə tutulub. Anderrayter və emitent müraciət edən istənilən potensial investora müfəssəl məlumat verəcəkdir.

**15.6. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz.

**15.7. Təklif edilən istiqrazların sayı və nominal dəyəri:**

Hər birinin nominal dəyəri 100 manat olan 150 000 ədəd istiqrazlar; İstiqrazlar baza emissiya prospektinin tərtib edilməsi yolu ilə aşağıdakı qaydada yerləşdiriləcəkdir:

Buraxılış 1- ümumi məbləği 5 000 000 manat olan, hər birinin nominal dəyəri 100 manat olan, 50 000 ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz.

Buraxılış 2- ümumi məbləği 5 000 000 manat olan, hər birinin nominal dəyəri 100 manat olan, 50 000 ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz.

Buraxılış 3- ümumi məbləği 5 000 000 manat olan, hər birinin nominal dəyəri 100 manat olan, 50 000 ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz.

15.8. **İstiqrazların valyutası:** Azərbaycan manatı

**15.9. İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:**

- Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 10.5 (on tam onda beş) faiz həcmində faiz almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

İstiqrazlarla təsbit olunan məhdudiyyətlər: Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

**15.10. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

**15.11. İstiqrazlar üzrə ödənilməli faizlər:** illik 10.5 (on tam onda beş) faiz.

**15.12. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** faiz dərəcəsi müəyyən olunub.

**15.13. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi nəzərdə tutulmamışdır. Hal-hazırda bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri müşaiyət olunmur.

**15.14. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazların təminatı mövcud deyil.

**15.15. İstiqrazların geri satın alınmasının şərtləri:** Tədavül müddəti ərzində istiqrazların geri satın alınması nəzərdə tutulmur.

**15.16. .Gəlirlilik dərəcəsi və onun hesablanması qaydası:**

İstiqrazlar üzrə faiz (kupon) gəlirliyi illik 10.5 (on tam onda beş) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{N * D * G}{360} / 100$$

Burada:
$TF$ – Bir istiqraz üzrə toplanmış faizlər (Azərbaycan manatı ilə ifadə olunur);
$N$ – Bir istiqrazın nominal dəyəri (100 (bir yüz) Azərbaycan manatı);
$D$ – İstiqrazların illik faiz dərəcəsi (10.5 (on tam onda beş) faiz);
$G$ – son faiz (kupon) ödənişindən keçən günlərin sayı.

**15.17. İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** İnvestorları təmisl edən təşkilat mövcud deyil.

BAZA EMİSSİYA PROSPEKTİ